# Məktəb-studiyanın BMA-nın 100 illik yubileyinə həsr olunmuş yay ustad-dərsləri

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Orta ixtisas musiqi məktəb-studiyası BMA-nın 100 illik yubileyi münasibəti ilə 2020-2021-ci tədris ili ərzində bir sıra kreativ layihələr həyata keçirmişdir.

BMA-nın şanlı yubileyinin qeyd edilməsi ilə əlaqədar 2021-ci il 15-30 iyul tarixlərində məktəb-studiya Azəbaycanın müxtəlif regionlarında fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinin şagird və müəllimləri üçün nəzərdə tutulmuş ödənişsiz yay ustad-dərsləri təşkil etmişdir.

Bu layihənin keçirilməsi Azərbaycan regionlarının musiqi tədris müəssisələri ilə qırılmaz bağların yaradılması, yaradıcılıq məsələlərinin geniş aspektdə baxılmasına dair metodik göstərişlərin verilməsi və onların optimal üsullar vasitəsi ilə bədii və texniki realizasiyası məqsədi daşıyır.

Şəki, Yevlax, Bərdə və Mingəçevir şəhərlərindən 30-a yaxın ərizə qəbul olunmuşdur. Ustad-dərslər fortepiano və violin (skripka) ixtisasları üzrə, şagirdlərin videoyazısının ilkin dinlənilməsi əsasında keçirilmişdir. Məktəb-studiyanın yüksəkixtisaslı müəllimləri: pianoçular – fortepiano şöbəsinin müdiri Nərgiz Mənsurova, Azərbaycanın əməkdar müəllimi Ayşa Əliyeva, sənətşünaslıq üzrə fəlsəfə doktorları İmina Əliyeva və Sevda Məmmədova, müəllimlər Nuranə Zeynalova, Nərminə Əliverdizadə, Ofeliya Axundova və Anna İsrafilova, skripkaçılar – orkestr alətləri şöbəsinin müdiri, dosent Gülnarə Quliyeva, Naira Qulamova və başqaları onlayn dərslərdə öz səmərəli təhsil metodu axtarışlarına əsaslanan çoxillik təcrübələrini gənc musiqiçilərlə paylaşmışdılar.

BMA-nın məktəb-studiyası yeni tədris ilindən başlayaraq tələb olunan bu metodik xidmətin ölkənin region musiqi və incəsənət məktəblərinə davamlı olaraq göstərilməsini nəzərdə tutur.